# Müəllim həm də psixoloq olmalıdır

## Ekspertlərin fikrincə, mükəmməl müəllim şagirdə müstəqil psixoloq kimi yanaşmağı da bacarmalıdır

**Son vaxtlar bəzi orta məktəblərdəki bir neçə müəllimin şagirdlərə qarşı mənfi davranışları ictimaiyyətdə böyük ajiotaj yaratdı. Bundan sonra valideynlər haqlı olaraq öz övladlarına görə narahat olmağa başladılar. Bir çox valideyn deyir ki, uşaqlar məktəbdən evə gəldikdən sonra evdə nalayiq sözlər işlətməyə, aqressiv davranışlar sərgiləməyə başlayıblar. Onlar etiraf edir ki, uşaqlar məktəbdə tərbiyə almaq əvəzinə, mənfi və zərərli vərdişlər qazanır. Sonradan isə valideynlər həmin uşağa düzgün istiqamətdə tərbiyə verməyə çətinlik çəkirlər.**



Məktəb insan həyatında mühüm rola malikdir. Nəzərə alsaq ki, şagird günün böyük hissəsini məktəbdə keçirir, uşaqların tərbiyəsində məktəb ailədən daha çox rol oynayır, deməli, məktəb həm də tərbiyə ocağıdır. Bəs niyə bəzi müəllimlər şagirdlərə tərbiyə vermək əvəzinə, onların psixologiyasını zədələyən hərəkətlərə yol verir və onları nalayiq ifadələrlə təhqir edirlər? Uşağı nadincliyinə və dərs keyfiyyətlərinə görə tənbeh və tənqid etmək olar, lakin təhqir və uşağın heysiyyətini alçaltmağın heç bir izahı ola bilməz. Ümumiyyətlə, bu kimi hallar necə tənzimlənməlidir ki, ütərəfli münasibətdə heç kim zərər çəkməsin?

### YAŞLI MÜƏLLİMLƏRİN BİR ÇOXU PSİXOLOGİYANI QƏBUL ETMİRLƏR

**Psixoloq Elnur Rüstəmli** "Kaspi"yə açıqlamasında bildirdi ki, müəllim tədris zamanı uşaqlara fərdi yanaşmalı və hər bir şagirdin müxtəlif psixologiyasının olması faktını nəzərə almalıdır: "Müəllimlər təhsil alarkən onlara pedaqogika, psixologiya kimi fənlər tədris olunur. Müəllim hər şeydən əvvəl öyrətməklə məşğul olur. Bir sinifdə isə müxtəlif xarakterə və psixologiyaya malik uşaq ola bilər. Əgər bir sinifdə 15-20 uşaq varsa, hamısı eyni düşüncədə, eyni yanaşmada, eyni cür ailə tərbiyəsi almış ola bilməz. Həmin uşaqların psixoloji durumları da fərqli olur. Bütün bu faktları müəllim tədris prosesi zamanı diqqətdən qaçırmamalıdır. Nəzərə almaq lazımdır ki, bugünkü və iyirmi il bundan öncəki uşaqlar arasında böyük fərq var. Ailələr də iyirmi il öncəki deyil".

Psixoloq bildirdi ki, belə halların qarşısını almaq üçün ilk növbədə orta məktəbdə fəaliyyət göstərən psixoloqların işini gücləndirmək lazımdır: "Orta məktəb psixoloqları təkcə psixoloq ştatında işə gedib-gəlməli, jurnal doldurmalı, dərsə gəlməyən müəllimin dərs saatını əvəz etməli deyillər. Bu sahədə iş fundamental şəkildə qurulmalıdır. Orta məktəb psixoloqunun görəcəyi iş olmalıdır. O, eyni zamanda məktəbdə fəaliyyət göstərən müəllimlərə də, şagirdlərə də psixoloji dəstək göstərməlidir. Əgər valideyn və məktəb arasında əməkdaşlıq olarsa, bu cür mənfi hallar az baş verər. Hər bir müəllim də ayrıca bir fərddir. Onun da narahatlığı, fərdi psixoloji problemi ola bilər. Elə uşaqlar var ki, onlarla nəinki müəllim, hətta evdə valideyni belə bacara bilmir. Həmin valideynlər öz başının rahatlığı üçün uşaqlarını məktəbə göndərir. Müəyyən yaş həddini keçmiş müəllimlər var ki, onlar pedaqogikanı mükəmməl bilir. Lakin psixologiya bizdə yeni bir sahə olduğu üçün həmin müəllimlər bundan məlumatlı olmaya bilər. Yaşlı müəllimlərin bir çoxu, ümumiyyətlə, psixologiyanı qəbul etmirlər. Onlar bunu artıq bir şey hesab edirlər. Uşaq və yeniyetmə psixologiyası, xüsusilə hiperaktiv, inkişaf geriliyi olan, çətin tərbiyə olunan, natamam ailədə böyüyən uşaqların psixologiyası ilə bağlı həmin müəllimlər bilgiləndirilməli və məlumatlandırılmalıdırlar. Həmin müəllimlər üçün ayrıca psixoloji seanslar və treninqlər təşkil olunmalı və onlar marifləndirilməlidirlər. Orta məktəbdə psixoloji iş yaxşı təşkil olunsa, orta məktəb psixoloqu ayda bir dəfə də olsa bu istiqamətdə müəllim heyətinə treninq keçsə, burada qazanan tərəf yalnız Azərbaycan təhsili və gəncliyi olacaq. Orta məktəblərin yalnız bir qismi psixoloji işi düzgün qura biliblər. Əslində burada günahı təkcə psixoloqların üzərinə atmaq da düzgün deyil. Psixoloji işi görmək üçün onların normal şəraiti yoxdur. Bu kim hallar onlarda işə qarşı motivasiya yaranmağına da mane olur. Nəticədə isə belə mənfi faktların sayı durmadan artır".

**Müəllimlər təhsil alarkən onlara pedaqogika, psixologiya kimi fənlər tədris olunur. Müəllim hər şeydən əvvəl öyrətməklə məşğul olur. Bir sinifdə isə müxtəlif xarakterə və psixologiyaya malik uşaq ola bilər. Əgər bir sinifdə 15-20 uşaq varsa, hamısı eyni düşüncədə, eyni yanaşmada, eyni cür ailə tərbiyəsi almış ola bilməz. Həmin uşaqların psixoloji durumları da fərqli olur. Bütün bu faktları müəllim tədris prosesi zamanı diqqətdən qaçırmamalıdır. Nəzərə almaq lazımdır ki, bugünkü və iyirmi il bundan öncəki uşaqlar arasında böyük fərq var. Ailələr də iyirmi il öncəki deyil.**

### "OXUTMURAM, ƏL ÇƏKİN!"

**Gənc müəllimə və valideyn Esmira Rövşənova** bizimlə söhbət zamanı həm valideynlərin, həm də müəllimlərin belə mənfi hallardan dərs çıxarmalı olduqlarını bildirdi: "Son zamanlar mətbuatda və xüsusən də sosial şəbəkələrdə yayılan görüntülər konkret olaraq müəllimlərin azyaşlı uşaqlar və şagirdlərlə kobud rəftarının əyani sübutu oldu. Baş verən son olaylar bir tərəfdən nə qədər üzücü olsa da, digər tərəfdən gənc valideynlər üçün maarifləndirici bir örnək oldu. Eyni zamanda, bu məsələyə daha çox diqqət yetirilməli olduğunu da sübut etdi. Mən özüm də valideynəm və hesab edirəm ki, müəllim (tərbiyəçi) - şagird (uşaq) münasibətlərində çox ehtiyatlı olmaq lazımdır. Müəllim savadlı olmaqla yanaşı, həm də pedaqoq olmağı bacarmalıdır və tədris prosesində fərdi yanaşmaya da diqqət yetirməlidir. Çünki sinifdə dərs keçəcəyi uşaqların, şagirdlərin hər birinin özünəməxsus xüsusiyyətləri, yetişdirilmə tərzləri var. Ancaq konkret olaraq döymə və zor tətbiq etmə, uşaqlara nalayiq sözlər demək sistemi ilə nəyinsə öyrədilməsinin tamamilə əleyhinəyəm. Həm valideyn, həm də müəllimə kimi belə davranışlar mənim üçün yolverilməzdir. Çünki belə hallar körpəlikdən uşaqlarda aqressiyanın yaranmasına səbəb ola bilər. Bu isə öz növbəsində onun psixikasına təsir edir və onun sağlam inkişafına əngəl törədir. Əgər mənim övladıma bu cür təhsil veriləcəksə, Mirzə Ələkbər Sabirin təbirincə desək, "Oxutmuram əl çəkin!"

**Azərbaycanın əməkdar müəllimi, təhsil eksperti Almaz Həsrət** öz müsahibəsində bildirdi ki, mükəmməl ali təhsilli insanlar elə psixoloqdur: "Bəzən müəllimlərin psixoloq kimi necə olmalarına dair suallar səslənir. Amma unutmaq olmaz ki, bütün mükəmməl insanlar - mütaliə edənlər, təhsilli insanlar qarşısındakı insanla ünsiyyətdə olarkən elə məhz həmin andan onların arasında psixoloji ünsiyyət yaranır. Bu o deməkdir ki, psixoloq olmaq üçün mütləq ali təhsil haqqında sənədin olmalı deyil. Yəni psixoloq mükəmməl təhsilli insanlardır. Təhsilli deyərkən əlində sənədi olan hər ali təhsilli nəzərdə tutulmur. Müəllimlər onsuz da bu sahədə nəinki öyrədəndirlər, onlar elə əsl psixoloqdurlar. Doğrudur, bizim cəmiyyətdə hələ də təhsil yönümündə psixoloji xidmətdə, psixoloqların iş fəaliyyətində müəyyən çatışmazlıqlar var. Bu çatışmazlıqlar da əksər psixoloqların özlərinin pedaqoji təhsilinin olmamasından irəli gəlir. Pedaqogikadan məlumatı olmayan, sinif mühitində çalışmayanlar gərək məktəblərimizdə təhsil alan şagirdlərlə ünsiyyətdən uzaq olsunlar. Çünki psixologiyanın məzmunundan xəbəri olmayanlar şagirdlərimizə də heç bir dəstək verə bilməzlər. Məhz bütün bu çatışmazlıqları nəzərə alaraq, gərək ali təhsil müessisələrində bu yöndə mövcud kafedralarda müasir planlar, strategiya hazırlansın. Psixologiyanın ayrıca bir elm kimi öyrənilməsindən əlavə, daha çox praktikliyə üstünlük verilsin. Psixologiya dərslərinin auditoriya şəraitində deyil, elə məhz məktəb mühiti şəraitində keçirilməsi zəruridir. Həmin dərslər məhz elə tədris ocaqlarında, şagirdlərin arasında tədris olunmalıdır. Şagirdlərin həssas yaş dövrlərində mükəmməl müəllim olanlar artıq müstəqil bir psixoloq kimi onlara yanaşmalı, şagirdin bütün problemlərini aşkar etməli və onların aradan qaldırılması yolunda yeni istiqamətləri müəyyənləşdirməlidir".

Bəzən uşaqlarda olan problemlərə görə çox vaxt məktəbin və müəllimin günahlandırıldığını deyən ekspert bildirdi ki, uşaqlar məktəbə öz ailəsindən aldığı tərbiyəni gətirir: "Unutmaq olmaz ki, uşaq dünyaya gələrkən aldığı ilk tərbiyəni, dilinə gətirdiyi hər bir kəlməni və davranışlarını məhz elə ailəsindən alır. Məktəbə təhsil almaq üçün gələn uşaq artıq özü ilə gətirdiyini, özündə mövcud olan potensialı inkişaf etdirir. Çox az hallarda olur ki, uşaq ailədən gördüyü və genində daşıdığı bütün həyati yaşam instinktlərini düşdüyü mühitə uyğun, ətrafındakı sinif yoldaşlarının təsirindən dəyişə. Ən çox uşaq evdən necə gəlirsə, elə də qalır. Yalnız ailədən problemlə gələn uşaq olursa, artıq bütün bu problemlərin həlli düşür müəllimlərin üstünə. O müəllimlərin ki, gündə öz ailəsi və övladından əlavə olaraq qarşılaşdığı 100-ə yaxın və ondan çox şagirdi ola. Bəs sual oluna bilər ki, müəllimi bu an düşünən varmı? Bəli, mükəmməl müəllimdən söhbət gedirsə, əsl müəllim həm psixoloqdur, həm öyrədən, həm də valideyn. Yuxarıda sadaladığımız problemlər var ki, onlar da mövcud situasiyalarda həmin boşluqları yaradır. Bu boşluqların aşkar olunmasının özü bir uğurdur. Hər bir işdə boşluğu aşkar etmək o deməkdir ki, işinizi mükəmməl bilirsiniz. Müəllim artıq müəllimlik ixtisasına yiyələnərkən, uyğun təhsil alarkən bu ixtisasın incəliklərini öyrənmiş olur. Tam elmi tərəfdən bilməsi, psixologiyanın tarixi və alimləri barədə bilikləri olmasa belə, ən vacib tərəflərinə malik olur. Hansı ki, bu, həmin müəllimlərin gələcəkdə məktəbdə şagirdlərlə çalışarkən gərəyi olacaq. Ən vacibi odur ki, mükəmməl müəllim olasan! Məhz o zaman psixoloji biliklərə mükəmməl yiyələnmiş sayılarsınız. Tədris müəssisələrində psixoloji biliklərin mənimsənilməsində müəyyən çatışmazlıqlar var. Bu, qaçılmazdır. Amma bunların qarşısının alınması üçün dövlət və Təhsil Naziriyi tərəfindən uyğun seminarlar, kurslar, treninqlər, dəyirmi masalar və öyrədici görüşlər təşkil olunur. Bu sahədə özündə boşluq aşkar edən müəllimlər istədiyi zaman psixologiya kafedralarına, müəyyən təhsil mərkəzlərinə müraciət edərək öz biliklərini artıra bilərlər".

**Şəbnəm Mehdizadə**